**L.R.ƏLİYEVA**
*doktorant*

**Azərbaycan Dillər Universiteti**
(Bakı şəh., R.Behbudov küç., 60)

# QƏDİM DÖVR İNGİLİS DİLİNİN FORMALAŞMASINA TƏSİR EDƏN ƏN MÜHÜM TARİXİ HADİSƏLƏR

***Açar sözlər:*** *sintetik dil, analitik dil, eramızdan əvvəl, işğalçı tayfalar, feodal münasibətləri, Xristianlıq*
***Ключевые слова:*** *синтетический язык, аналитический язык, до н.э., феодальные отношения, Христианство*
***Key words:*** *synthetic language, analytical language, BC, invading tribes, feudal relations, Christianity*

Müasir ingilis dilinin təkamül dövrünü diaxronik aspektdə araşdırdıqda fərqli dövrlərdə dilin fonetik, qrammatik və leksik sistemini müqayisə etdikdə onun tarixən köklü dəyişikliklərə uğradığını müşahidə etmək olar. Ən başlıca fakt olaraq onu demək kifayətdir ki, qədim dövrdən başlayaraq orta dövrə, təxminən XI əsrin əvvəllərinə qədər ingilis dili şəkilçili sintetik dil olmuşdur. Qədim dövr ingilis dilində cümlə üzvləri arasındakı sintaqmatik əlaqələr müxtəlif paradiqmlər vasitəsilə ifadə olunurdu. Belə ki, isimlərdə zəngin hal, mənsubiyyət və cins şəkilçiləri, feilin zaman formalarını, məchul növünü, şəkil kateqoriyasını ifadə edən çoxlu sayda morfoloji əlamətlər bu dövr ingilis dilinin qrammatik sistemi üçün xarakterik idi. Şəxs, yiyəlik və işarə əvəzlikləri isimlə və sifətlə şəxsə, kəmiyyətə və cinsə görə uzlaşırdı. İsimlərin cinslərə görə bölgüsündə artikllar mühüm rol oynayırdı. Tədqiqatçılar qədim ingilis dilinin qrammatik quruluşunu çox zaman müasir alman dilinin daxili sistemi ilə müqayisə edirlər, hansı ki, bu dil həm sintetik, həm də analitik formalarla zəngin, qrammatik cins kateqoriyasının "hökmranlıq etdiyi" bir dildir. İngilis və alman dilləri Hind-Avropa dilləri ailəsinin german yarımqrupuna aid olub tarixən german tayfalarının dillərinin təsiri altında formalaşmışlar və onların leksik sistemində oxşarlıq olsa da, lakin tarixi inkişaf, müəyyən daxili və xarici amillərin təsirilə ingilis dilinin qrammatik sistemi fərqli istiqamətdə inkişaf etmiş, dildəki şəkilçilərin əksəriyyəti, qrammatik cins kateqoriyasını ifadə edən morfoloji əlamətlər zəifləyərək tədricən dili tərk etmişlər. Qədim ingilis dilində vurğulu hecada tələffüz olunan sait səslər orta dövrdə zəifləyərək *e* hərfi ilə yazılmış və [ə] səsi ilə tələffüz olunmuşlar, müasir dövr ingilis dilində isə çox zaman *e* hərfi tələffüz olunmur. Məsələn,

| Qədim dövr | Orta dövr | Müasir dövr |
|---|---|---|
| stān-as | ston-es | stones – daşlar |
| sun-u | sun-e | son – oğul |
| sun-a | sun-e | sons – oğullar |
| lōc-ode | lok-ede | looked – göründü (8) |

Mütəxəssis rəylərinə görə, bunun başlıca və ən əsas səbəblərindən biri ingilis dilinin formalaşdığı tarixi mühit, irimiqyaslı işğallar dövründə işğalçı dilin yerli dilə təsirinin nəticəsidir. Bununla bağlı A.C.Bou və T.Keibl belə yazırlar: *"Bugünkü ingilis dili əsrlərin inkişafını özündə əks etdirir. İngilis dili daim dəyişən, inkişaf edən və yenilənən bir dildir. Bu dəyişikliyi ingilis dilinin lüğət tərkibində və qrammatik quruluşunda görmək olar. Bir zamanlar şəkilçili, sintetik dil olan ingilis dili bu gün analitik dildir"* (2, s. 2-3).

M.Paşayeva ingilis dilçisi H.Svitə istinad edərək yazır: *"Dilin öz inkişafı prosesində kəsb etdiyi müəyyən fonetik-morfoloji əlamətlərə əsaslanaraq ingilis dilçisi Henri Svit dövrləri aşağıdakı şəkildə adlandırmışdır:*

*1. Qədim ingilis dili dövrü – tam/dolu/sonluqlu dövr/(full endings)*
*2. Orta ingilis dili dövrü – zəifləmiş sonluqlu dövr / (levelled endings)*

*3. Yeni ingilis dili dövrü – sonluqları itirilmiş dövr/ (lost endings)”* ( 1, s. 41-42).

Qeyd edək ki, Henri Svitin ingilis dilinin tarixini tədqiq etməkdə xüsusi rolu olmuşdur. O, Qədim dövr ingilis dilinin tarixi ilə bağlı bir neçə əsər yazmışdır. Hətta onu *“Dünyaya qədim ingilis dilini öyrədən şəxs” (The man who taught the world old English)* (5) adlandırırlar.

Qeyd olunduğu kimi, müasir ingilis dilinin formalaşma və inkişaf tarixi müxtəlif səviyyəli barbar tayfalarının qarət və işğalçılıq, müstəmləkə yürüşləri ilə formalaşan dövrə təsadüf etmişdir. Yalnız qüdrətli Roma imperiyası dövrünə görə adalara yüksək təhsil, mədəniyyət gətirmişdir. Lakin bu sivilizasiya da digər barbar tayfaları Anqlo-Saksonlar tərəfindən dağıdılmışdır. Adalara yeni gələn Anqlo-Saksonlar buranın daimi sakini oldular, V əsrdən başlayaraq adalarda Anqlo-Sakson dövrü başlamışdır. Alimlər ingilis dilinin tarixinin Anqlo-Saksonlardan başladığını qeyd edirlər. Qədim ingilis dilini hərtərəfli tədqiq edən H.Svit qədim dövr ingilis dilini *“Anqlo-Sakson ingilis dili”* (6, s. 15) adlandırmışdır.

Sözügedən mövzu ilə bağlı birinci məqalədə qeyd olunduğu kimi eramızdan əvvəl VI-III əsrlərdə adalar Selt tayfaları, eramızın I-V əsrlərində quldarlıq dövrünün qüdrətli dövləti Roma imperiyası tərəfindən işğal olunaraq əsrlərlə əsarət altında saxlanılmışdır. Hər yeni gələn işğalçı köhnəni sıxışdırıb aradan çıxararaq adalarda hökmranlıq etmişdir. Romalılar beş əsrə qədər adaların sahibi olmuş, öz dillərini, dinlərini, mədəniyyətlərini, adət və ənənələrini Britaniya adalarına gətirmişdilər. Keçən beş əsr müddətində latın və yunan dilləri adada hökmran dil olmuş, bütün dövlət sənədləri bu dildə yazılmış və latın dili yüksək səviyyədə təhsil almaq üçün əsas dil olmuşdur.

Lakin V əsrin ortalarından başlayaraq daxildən qul üsyanları, xaricdən isə qitədə işğalçılıq müharibələri aparan germandilli barbar alman tayfalarının aramsız hücumlarının nəticəsində Roma imperiyası zəiflədi və süqut etdi. Artıq Roma imperiyasının adalardakı hökmranlığı da zəifləyərək tədricən aradan qalxdı. Latın dili dövlət və kilsənin dili olsa da, sadə xalq selt dilində danışırdı, onlar latın dilini başa düşmürdülər.

V əsrin ortalarında qitədə işğalçılıq müharibələri aparan alman tayfaları Gaulu (indiki Fransa ərazisini) işğal edərək Şimal dənizini keçib Britaniya adalarına üz tutdular və 449-cu ildə ilk dəfə Yutlar (Jutes), sonra Anqlo və Sakson tayfaları ada torpaqlarını işğal etməyə başladılar. Onlar işğal etdikləri əraziləri əvvəlcə qarət məqsədilə ələ keçirsələr də, sonralar burada məskunlaşmağa, yerli Selt tayfalarını sıxışdırıb adadan çıxarmağa başladılar. Seltlər ya onlara tabe olur, ya da adanın dağlıq hissələrinə qaçaraq orada məskunlaşırdılar.

Tədqiqatlar göstərir ki, V əsrdən başlayaraq Britaniya adalarında yaşanan tarix, eləcə də qədim ingilis dilinin formalaşması Anqlo-Sakson tayfalarının adı ilə bağlıdır.

Anqlo-Saksonlar iri şəhərlərdə deyil, kəndlərdə yaşayıb əkinçilik və maldarlıqla məşğul olduqlarına görə onlar romalıların inşa etdiyi qalaları, qəsrləri, evləri dağıdır, daş yolları sökür və kəndlərdə özlərinə kiçik evlər qururdular. Ona görə də, bu gün İngiltərədəki əksər kəndlərin adı Anqlo-Sakson mənşəlidir. Məsələn, sonu *ton – hedge – çəpər, burgh, bury – to hide – gizlətmək, ham – home – ev, field – tarla çöl* sözləri ilə bitən, yer bildirən isimlər Anqlo-Sakson mənşəlidir. Bura *Northampton, Southampton, Brighton, Preston, Salisbury, Canterbury, Edenburgh, Middlesbourgh, Nottingham, Birmingham, Cheltenham, Sheffield, Chesterfield, Mansfield* (10, s. 55) və s. sözlər aiddir. Bunlar Anqlo-Sakson mənşəli toponimlərdir.

İngilis dilinin formalaşmasına təsir edən digər mühüm hadisə Britaniya adalarında Xristianlıq dininin qəbul olunması olmuşdur. Bu VI əsrin sonu (597-ci il) Müqəddəs Avqustinin və qırxa qədər rahibin Roma Papası tərəfindən Britaniya adalarına göndərilməsi ilə başladı və VII əsrin ikinci yarısında başa çatdı. Bu zaman Britaniya adası Roma imperiyasına tabe idi. O zamankı Anqlo-Sakson tayfaları çoxallahlığa *(paganism)* sitayiş edirdilər. Lakin Xristianlıq adada vahid din elan olundu. İlk olaraq Anqlo-Sakson kralları və yüksək təbəqə nümayəndələri bu dini qəbul etdilər, sonra isə digər krallıqlara xristianlıq sürətlə yayıldı. Latın dili ölkədə əsas dilə çevrildi. Adada kilsə xaqanlığı başladı. O zamanlar latın dili yüksək, ziyalı təbəqəsinin dili idi. Xristianlığın qəbul olunması adaya o dövrün

mədəniyyətini və təhsil sistemini gətirdi. Latın dili beynəlmiləl dil olaraq işlədilirdi. Adada çoxlu kilsələr və monastırlar tikildi. Rahiblər adanın hər yerində xristianlığı təbliğ edir, dini məktəblərdə yerli gənclərdən gələcəyin latın dilini mükəmməl bilən rahiblərini yetişdirirdilər. Kilsə artıq xalqı itaətdə saxlamağın digər bir vasitəsinə çevrilmişdi. O dövrün alimləri Latın dilində təhsil alır və öz kitablarını bu dildə yazırdılar. Məsələn, 673-735-ci illərdə yaşamış rahib Bid *(The Venerable Bede – hörmətli Bid)* (10, s.77) latın dilində mükəmməl təhsil almış və Anqlo-Sakson tarixindən bəhs edən *Ecclesiastical History of the English People – İngilis xalqının kilsə tarixi* əsərini bu dildə yazmışdır. Qeyd edək ki, bu əsər qədim ingilislərin tarixi haqqında məlumat verən yeganə əsər olmaqla öz dəyərini bu gün də qoruyub saxlamaqdadır.

Artıq dövlət sənədləri latın dilində yazılırdı. Çünki bütün bunlar Roma Britaniyasında baş verirdi. Xristian dininin təsiri altında yunan və latın mənşəli sözlər ingilis dilinə daxil olur, onun fonetik və qrammatik sistemində dəyişikliklərə səbəb olurdu. Məsələn, bu gün ingilis dilində işlədilən *mathematics, physics, arithmetic, geography, theatre, democracy, Europe, galaxy, marathon, marmalade, music, planet* və s. sözləri yunan dilindən; *school, paper, candle, scholar* və s. kimi sözlər latın dilindən keçmişdir. Qeyd edək ki, müasir ingilis dilində işlədilən sözlərin 60%-i latın mənşəli sözlərdir. Onlar ingilis dilində işlədilərkən müəyyən dəyişikliklərə uğramışlar. Məsələn, *villa-villa, house; antiqua – antique, old; longa – long; pictura – picture; nova – new; provincia – province; fama – fame; aqua – water; lingua - language* və s. (4, s.1).

Anqlo-Saksonlar Britaniya adalarında məskunlaşdıqları 250 il ərzində artıq özlərinin yeddi krallıqlarını yaratmışdılar: Esseks, Sasseks, Mersia, Kent, Nosambria, Cənubi Anqlia və Vesseks. Bu krallıqlar arasında adada hökmranlıq uğrunda mübarizə gedirdi. Bəzən üstünlük bir krallıqdan digərinə keçirdi. Krallıqların ən güclüləri Nosambria, Mercia və Vesseks olmuşdur. Lakin IX əsrdən başlayaraq Vesseks əsas krallıq oldu və digər krallıqları öz ətrafında birləşdirdi. Beləliklə, birləşmiş krallıqların, başqa sözlə gələcək İngiltərə dövlətinin əsası belə qoyuldu. Bütün xırda krallıqlar da vahid halda birləşdi. Bunun başlıca səbəbi o dövrdə Qərbi Avropanı lərzəyə salan yeni işğalçı tayfaların hücumları idi. 793-cü ildə adaya hücum edən yeni tayfalar Skandinaviya yarımadasından gələn Norveç, İsveç və Danimarka əsilli tayfalar idi. Onlar VIII əsrin sonundan X əsrin oratalarına qədər müddətdə Britaniya adalarına hücumlar etmişlər. Yeni tayfalar müxtəlif tarixi mənbələrdə fərqli adlarla – qitənin Şimal hissəsindən gəldiklərinə görə *the Northmen – Şimal adamları (*və ya *the Normans),* ən çox hücumlar danimarkalılar tərəfindən olunduğuna görə *the Danes – danimarkalılar, the Vikings – Vikinqlər* adlandırılırdılar. Qədim skandinav dilində *vikinq* sözü *a pirate raid – dəniz quldurlarının hücumu* və ya *vikja* sözündən olub *to move swiftly – cəld hərəkət etmək* və ya *vik – an inlet – nazik dəniz körfəzi* sözlərindən yarandığı güman edilir. Və ya *a fast-moving sailors - mahir, cəld hərəkət edən dənizçilər* mənasında da başa düşülə bilər (9).

Bu tayfalar əvvəlcə işğalçılıq məqsədilə gəlsələr də, sonralar daha güclü donanma ilə gələrək ada torpaqlarının xeyli hissəsini ələ keçirdilər. Skandinaviya adalarından gəlmiş tayfalar da Anqlo-Saksonlar kimi eyni mənşədən olub çox yaxın, anlaşıqlı dildə danışırdılar. Anqlo-Saksonlar adalara hakim olduqdan sonra onlar xeyli inkişaf etmiş, Xristian dinini qəbul etmiş, adaların əvvəlki sakinlərini sıxışdırıb çıxararaq ölkənin ucqar yerlərinə – Şotlandiya, Uels və İrlandiyaya tərəf qovmuşdular. Bu gün də onların danışdıqları dil Qall dili olub Selt mənşəlidir.

Britaniya adalarını zəbt edən tayfalar burada bir neçə əsr məskunlaşdıqlarına görə onlar bura məhrumiyyətlərlə bərabər öz sivilizasiyalarını da gətirirdilər. Skandinaviya tayfaları hələ də aşağı səviyyədə yaşasalar da, onlar cəsur döyüşçü, mahir dənizçi və tacir idilər. Demək olar ki, onlar suların tam hakimi idilər. Vikinqlər o zaman üçün mükəmməl hesab olunan gəmilər, qayıqlar düzəldir, yeri dəmir alətlərlə şumlayırdılar. Onlar adaları zəbt edən kimi burada məhsuldarlığı artırmağa, ticarəti inkişaf etdirməyə, donanma yaratmağa başladılar. Ölkədə feodal münasibətləri sürətlə inkişaf etməyə başladı.

Skandinaviya yarımadasından gəlmiş yeni tyuton tayfaların Britaniya adalarına hücumu ada torpaqlarının dördüncü dəfə yadellilər tərəfindən işğal olunmasnın başlanğıcı oldu. Onlar adalara hücum edərək Kent, Anqlia, Nosambria krallıqlarını asanlıqla ələ keçirdilər. Çünki o zaman birləşmiş krallıqlar müharibəyə hazır deyildi, onların yaxşı ordusu və donanması yox idi. 835-ci ildə Danimarkalılar Vesseks krallığına hücum etsələr də, kral Eqbertin qoşunları onları məğlub etdi. Aramsız hücumlara baxmayaraq Danimarkalılar Vesseks krallığını ələ keçirə bilmədilər.

871-ci ildə Vikinqlər Vesseks krallığına yenidən hücum etsələr də, oranı yenə də işğal edə bilmədilər. Bu zaman krallığa Eqbertin nəvəsi kral Alfred başçılıq edirdi (871-899).

Kral Alfred düşmənin qarşısını ala bildi. O, krallıqları qoruyacaq istehkamlar tikdirdi, nizami ordu və güclü donanma yaratdı. Bunun üçün o, qitədən mütəxəssislər gətirtdi. Kral Alfredin qoşunları bir neçə dəfə düşməni məğlub etdi və 886-cı ildə bağlanmış müqaviləyə əsasən Vesseks və Mersia krallığının bir hissəsini vikinqlər tərk etdilər, lakin digər krallıqlar onların əlində qaldı. Beləliklə, Britaniya adaları iki hissəyə ayrıldı. Geniş ərazi Vikinqlərin əlində qaldı və o, Deinlou ( the Danelaw) - *"Danimarkalıların qanunlarının hökmranlıq etdiyi yer"* (10, s.89) adlandırıldı.

Britaniya adalarının yalnız bir hissəsi kral Alfredin tabeliyində qaldı. Bağlanmış sülh müqaviləsindən sonra kral Alfred ölkədə yeni quruculuq işləri ilə məşğul oldu, ölkəni yeni qanunlar əsasında idarə etməyə başladı. Ölkənin bütün kişiləri hərbi təlimlərə cəlb olundu, təhsil, elm inkişaf etdirildi. Kral dağıdılmış kilsə və məbədləri bərpa etdirdi, məktəblər açdı, hamının təhsil almasını tələb etdi. O, yunan və latın dillərində təhsillə yanaşı sadə xalqın danışdığı Anqlo-Sakson dilinin də inkişaf etdirilməsinə çalışdı. O zaman latın dilində yazılmış qanunlar toplusunu, İngiltərənin tarixinə dair əsərləri Anqlo-Sakson dilinə tərcümə etdirdi ki, sadə xalq da bu kitabları oxuya bilsin. Kral Alfredin əmri ilə İngiltərənin tarixi Anqlo-Sakson dilində yazılmışdır. Qeyd edək ki, Anqlo-Sakson ingilis dilinin dil kimi formalaşmasında, inkişaf etdirilməsində və gələcəkdə bir xalqın dilinə çevrilməsində kral Alfredin rolu böyükdür. Əbəs deyildir ki, onu ingilis xalqı tarixi xidmətlərinə görə *Alfred the Great – Böyük Alfred* (10, s.87) adlandırmışdır. Bəlkə də, müasir ingilis dilinin ilkin forması hesab olunan Anqlo-Sakson ingilis dili tarixi dönəmin elə anında formalaşmış və inkişaf etmişdir ki, bu dili ortadan qaldıracaq başqa güclü bir gəlmə dil olmamışdır. Çünki Anqlo-Saksonlara qədər Britaniya adaları Seltlər, daha sonra Roma imperiyası tərəfindən istila olunsa da, onların dili vahid dilə çevrilməmişdir. Bir işğalçı digərinin dilini, mədəniyyətini sıxışdırıb sıradan çıxarmışdır. Əlbəttə, onların dillərinin ingilis dilində izləri qalsa da, bu tayfaların dili deyil, məhz Anqlo-Saksonların dili adada hökmran dil oldu. Dövlət sənədləri, yüksək səviyyəli zadəgan təhsili latın və yunan dillərində olsa da, sadə xalq yerli dialektdə danışırdı, onlar latın dilini başa düşmürdülər. Eyni zamanda 450-ci ildən başlayaraq Vikinqlərin istilasına qədər olan dövrdə, təxminən VIII əsrin sonu 793-cü ilədək olan dövrdə Anqlo-Saksonlar adalarda, xüsusilə onun daha əlverişli coğrafiyaya malik olan indiki İngiltərə ərazisində yaratdıqları yeddi krallıqda eyni dilin dörd müxtəlif dialektlərini danışmışdılar. Qədim ingilis dilinin təkamül proseseindən bəhs edən K.Klöver yazır: *"Bizim eradan əvvəl V-VI əsrlərdə Anqlo, Sakson və Yut tayfaları Britaniya adalarını işğal etdi. Onların danışdığı dil demək olar ki, oxşar olub müasir Friz (hazırda Niderlandın şimal-şərqində danışılan dil) dilinə bənzəyirdi və qədim ingilis dili adlanırdı. O zamanlar qədim ingilis dili dörd dialektdə – İngiltərənin şimalında Nosambria, orta hissədə Mersia, İngiltərənin cənubunda və qərbində Vest Sakson və cənub hissədə Kent dialektlərində danışılmışdır"* (7, s. 3). Bu dialektlər eyni bir dilin, yəni Anqlo-Sakson ingilis dilinin variantları olub danışan insanlar tərəfindən qarşılıqlı olaraq başa düşülürdü. Sonralar bura hücum edən Skandinav tayfaları da oxşar dil danışdıqlarından bu gələcəkdə ingilis dilinin daha da zənginləşməsi və inkişafı üçün şərait yaratmışdır. *"Biz bütün bu dialektləri dedikdə Qədim ingilis dilini nəzərdə tuturuq. 1500 il bundan əvvəl heç kim*

*Avropanın ucqar hissəsində tərk edilmiş Roma müstəmləkəsində işğalçı tayfalar tərəfindən danışılan bir dilin bu gün dünyəvi bir dilə çevriləcəyini təsəvvür edə bilməzdi"* (3, s. 4).

X əsrin ikinci yarısında Vesseks krallığı daha da gücləndi, Skandinaviyalılarla gedən müharibələrdə Vesseks qoşunları qalib gəldi, onlar Vikinqlərin əlində olan bütün torpaqları geri qaytardılar və vahid İngiltərə krallığını yaratdılar. Lakin danimarkalılar ölkədən çıxarılmadı, onlar yeni krallığa tabe olaraq yaşamağa davam etdilər və adaların sakinlərinə çevrildilər. Onların dili Anqlo-Sakson dili ilə eyni kökdən olduğuna görə, onlar bir-birlərini asanlıqla başa düşürdülər. Britaniya adalarını zəbt edən dövlət və tayfalar bu torpaqlarda uzun müddət məskunlaşdıqlarına görə adalardakı həyatın inkişafı üçün də çalışmışlar. Belə ki, skandinaviyalılar meşələri qıraraq əkinçiliklə məşğul olur, ticarəti və gəmiqayırma işini gözəl bacarırdılar. Beləliklə, Britaniya adalarında əmək münasibətlərinin inkişafı feodal münasibətlərinin inkişafına yol açırdı. Britaniya adalarında iri, zəngin torpaq sahibləri zümrəsi formalaşmışdı ki, onlar *lordlar (landlords)* adlandırılırdı. Dövlət artıq belə zəngin adamların mənafeyini qoruyaraq onların hesabına möhkəmlənirdi. Artıq İngiltərə vahid krallıq olaraq inkişaf edirdi. Lakin X əsrin sonlarına doğru Danimarkalıların Britaniya adalarına yeni hücumlara başladı və XI əsrin əvvəllərində onlar bütün İngiltərə torpaqlarını ələ keçirdilər. Kanute (1017-1035) özünü Danimarka, Norveç və İngiltərənin kralı elan etdi. O, İngiltərədəki hakimiyyətini möhkəmləndirmək üçün zadəganlara arxalanır, onlara yüksək imtiyazlar verir, xalqı əsarətdə saxlamaq üçün vergiləri artırırdı. Kanute hakimiyyətini möhkəmlətmək üçün Xristian dinini qəbul etdi və Xristianlıq onun krallıq etdiyi bütün dövlətlərdə vahid din oldu. Kanutenin vəfatından sonra Danimarka krallığı zəiflədi və İngiltərə yenə müstəqil olaraq Anqlo-Sakson kralları tərəfindən idarə olunmağa başladı.

Beləliklə, 793-cü ildən 1066-cı ilə qədər olan dövrdə Britaniya adaları Skandinaviyadan gəlmiş Danimarka, Norveç və İsveç mənşəli barbar alman tayfaları tərəfindən zaman-zaman işğal olunmuş, onların dilləri, həyat tərzi Anqlo-Saksonların yaşam tərzinə və dillərinin formalaşmasına təsirsiz ötüşməmişdir. Bu gün də ingilis dilində skandinav mənşəli sözlər işlənməkdədir. Məsələn, *happy, low, loose, ill, weak, to take, to die, to call, sister, husband, sky, fellow, law, window, leg, wing, harbour* sözləri; *Grimsby, Whitby, Lowestoft, Lincolnshire, Yorkshire, Derbyshire* (10, s.98) və s. toponimləri buna misal göstərmək olar.

## Ədəbiyyat

1. Paşayeva, M. M. İngilis dilinin tarixi (qədim dövr) (Mühazirə kursu). Redaktor O. Musayev. Bakı, 1972. 136 s.

2. Baugh, A.C., Cable,T. A History of the English Language. Sixth Edition. – London and New York, 2008, 428 p.

3. Carole Hough and John Corbett. Beginning Old English. 2007. 249 p.
www.users.pfw.edu/flemingd/Hough_Beginning OE.pdf

4. English Vocabulary Derived from Latin. www.enhancemyvocabulary.com

5. Henry Sweet: The Man who taught the world Old English.
www.thijsporck.com/2016/05/29/henrysweet/#:~:text=Henry

6. Henry Sweet, M.A. Anglo-Saxon Reader in Prose and Verse with Grammatical Introduction, Notes and Glossary. Oxford University Press, 1871. 413 p.
www.archive.org/details/ananglosaxonrea00whitgoog/page/n6/mo

7. Klöver, Carolin. Evolution of the English language. Essay. GRIN Verlag. 2018. 8 p.
https://www.grin.com/document/2018

8. OLD ENGLISH GRAMMAR AND EXERCISE BOOK.
www.web.uvic.ca/hrd/oe/docs/oe_grammar.htm

9. www.history.org.uk/primary/resources/

10. Zaitseva, S.D. Early Britain. Moscow "Prosveshcheniye" 1981. 254 p.

**Л.Р.Алиева**

**Наиболее важные исторические события, повлиявшие на формирование древнего английского языка**

***Резюме***

Изучение естественных языков с диахронической точки зрения начинается с изучения эволюционного процесса, которому они подверглись, по отношению к истории народа, которому принадлежит язык. В этом смысле современный английский можно считать языком с богатым историческим становлением. На английский язык сильно повлияли языки других европейских племен, а также греческий и латинский языки, принесенные на острова Римской империей. В этом смысле английский претерпел глубокие изменения в течение эволюционного периода и развивался иначе, чем другие индоевропейские языки. Это вторая статья на эту тему и в ней рассматриваются важные события, повлиявшие на формирование древнеанглийского языка - нападения скандинавских племен на Британские острова, принятие христианства на острове и другие факторы, повлиявшие на формирование англо-саксонского Английский.

**L.R.Aliyeva**

**The most important historical events that effect on the formation of ancient English language**

***Summary***

The study of natural languages from a diachronic point of view begins with the study of the evolutionary process to which they have undergone in relation to the history of the people to whom the language belongs. In this sense, modern English can be considered a language with a rich historical development. English has been heavily influenced by the languages of other European tribes, as well as Greek and Latin, brought to the islands by the Roman Empire. In this sense, English underwent profound changes during the evolutionary period and developed differently from other Indo-European languages. This is the second article on this topic and it examines the important events that influenced the formation of the Old English language - the attacks of the Scandinavian tribes on the British Isles, the adoption of Christianity on the island and other factors that influenced the formation of the Anglo-Saxon English.

*Rəyçi: filol.e.d., prof. A.Y.Məmmədov*

*Redaksiyaya daxil olub: 18.03.2022*